# Cəlilabadda şəhid ailələri ziyarət edilib





**Bütün bölgələrdə olduğu kimi, Cəlilabadda da şəhid ailələrinə və qazilərə yüksək diqqət və qayğı göstərilir, onların problemlərinin həlli istiqamətində addımlar atılır.**

Rayon icra hakimiyyətinin başçısı Rafiq Cəlilov bu günlər Göytəpə şəhərində şəhidlər Murad Səlifov, Vüqar İbadov və Vüsal Cəfərovun ailə üzvləri ilə görüşmüş, onların qayğı və problemləri ilə maraqlanmışdır. Süfrə ətrafında keçirilən görüşdə R.Cəlilov 30 ilə yaxın müddət ərzində Ermənistan tərəfindən işğal olunmuş torpaqlarımızın 44 gün ərzində azad olunmasından, Prezident İlham Əliyevin şəhid ailələrinə və qazilərə diqqətindən söz açmışdır. Ziyarət zamanı şəhid ailələri şəhidlərlə bağlı xatirələrini bölüşmüş, ölkəmizdə şəhid ailələrinə göstərilən dəstəkdən razı olduqlarını bildirmişlər.

*Seyran CAVADOV,*
*"Azərbaycan"*

Azərbaycan. - 2025.- 31 oktyabr (№233).- S.15.